## Arif RAMAZANOV - 80

# BU, ARİF RAMAZANOVDUR!



*Bizim Arifləri tarix salacaq bil ki, yada,*
*Onların misli inanmam tapıla Asiyada!*

Tələbəlik illərində mətbuat səhifələrindən izlədiyim bir sıra yazıların sonunda, müəllif imzasının yerində "Məmmədağa Sultanov, Respublika Əlyazmalar Fondunun direktoru" sözlərinə tez-tez təsadüf edirdim və hər dəfə məndə həmin idarəyə getmək, mənim üçün sirli olan bu məkanda qədim əlyazmaları görmək arzusu yaranırdı. Lakin nədənsə mənə elə gəlirdi ki, əlçatmaz görünən bu məkana daxil olmaq qeyri-mümkündür.

Günlərin bir günü həyatımda bir möcüzə baş verdi. Tale elə gətirdi ki, Universiteti (Azərbaycan Dövlət Universiteti, indiki BDU) bitirdikdən sonra həmin sirli aləmin əməkdaşı oldum və burada böyük şəxsiyyətləri, şərqşünas alimləri gördüm. Belə ki, Şərq fakültəsində tələbə yoldaşım olmuş Arif Ramazanov Əlyazmalar Fondunda İran məktəbini bitirmiş bir xanımın təqaüdə çıxdığını, onun yerinə işçi axtarıldığı xəbərini mənə çatdırdı.

Qeyd etmək lazımdır ki, Respublika Əlyazmalar Fondu Azərbaycan SSR Nazirlər Sovetinin 1950-ci il 12 oktyabr tarixli 1410 saylı qərarı ilə yaradılmış, 1986-cı ildə SSRİ Nazirlər Soveti sədrinin I müavini olan Ulu Öndər Heydər Əliyevin bilavasitə köməyi ilə, SSRİ Nazirlər Sovetinin qərarı ilə İnstitut statusu almışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə İnstituta böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin adı verilmişdir. Azərbaycanın mənəvi sərvət xəzinəsinə xüsusi qayğı göstərən Ulu Öndər Heydər Əliyev 2002-ci il oktyabrın 24-də Almaniyada ona bağışlanmış möhtəşəm "Kitabi-Dədəm-Qorqud"un Drezdən əlyazmasının fotofaksimile nüsxəsini də hədiyyə olaraq AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik katibi, AMEA-nın müxbir üzvü Ağamusa Axundov vasitəsilə məhz Əlyazmalar İnstitutuna təqdim etmişdir. Tarixə çevrilmiş bu hadisə "Heydər Əliyev və Əlyazmalar İnstitutu" adlı filmdə öz əksini tapmışdır.

Əlyazmalar İnstitutu fəaliyyət göstərdiyi illər ərzində onun xəzinəsindən bəhrələnən neçə-neçə alim-əlyazmaşünas yetişmişdir. Onlardan biri də Arif Feyzulla oğlu Ramazanovdur.

Arif Feyzulla oğlu Ramazanov 23 oktyabr 1945-ci ildə İran İslam Respublikasının Tehran şəhərində dünyaya gəlmişdir. Əslən İrəvanlı olan atası 1937-ci ildə İrəvandan Tehrana köçmüş, orada Gəncə şəhərindən olan xanımla ailə qurmuş, bu izdivacdan dörd övladı (Arif, Adil, Kamal, Nadir) dünyaya gəlmişdir. Arif Tehranda böyüyərək, orada fars dilində orta təhsil alsa da, səlis nitqində, danışığında təmiz Azərbaycan dili səsləndirir. Bu, rus təhsili alanlara örnəkdir. Ərəb və fars dillərini kamil bilən Arifgilin ailəsi 1961-ci ildə Bakıya köçmüş, həmin ildə, o, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə daxil olmuş, Universiteti 1966-cı ildə fars və Azərbaycan dili üzrə filoloq ixtisası ilə bitirmişdir.

Arif Ramazanov 1967-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən Respublika Əlyazmalar Fondunda (1986-cı ildən Məhəmməf Füzuli adına Əlyazmalar İnstitutu) əmək fəaliyyətinə başlamış, burada laborant, baş biblioqraf, kiçik elmi işçi, şöbə müdiri və 1985-ci ildə keçirilmiş Attestasiya nəticəsi ilə böyük elmi işçi vəzifələrində çalışmışdır.

Ərəb və fars dillərinə (bildiyimə görə ingilis dilinə də bələddir) mükəmməl yiyələnmiş Arif çalışdığı illər ərzində elmi işlə məşğul olmaqla yanaşı, İnstituta alınan qədim əlyazmaların qiymətləndirilməsi üzrə ekspert komissiyasının fəal, əsas üzvü, katibi kimi çətin və məsul işdə fərqlənmiş, əlyazmaların, müxtəlif xətlərlə köçürülmüş nüsxələrinin müəllif və əsər adlarının, mənsub olduğu elm sahələrinin dəqiqləşdirilməsi, dövlət inventar kitabına yazılması, ilkin işlənməsi kimi çətin işlərin öhdəsindən bacarıqla gəlmiş, bu sahənin mahir bilicisi kimi tanınmışdır. Məlum olduğu kimi, Qədim və Orta əsr abidələri olaraq ərəb və fars dillərində yazılmış əlyazmaları düzgün oxumaq üçün onların bilicisi olmaq lazımdır. Məhz bu xüsusiyyətlərə malik olmaq Arifi digər əməkdaşlardan fərqləndirir.



*Arif Ramazanov və Hacı Mail Əliyev*

Yuxarıda qeyd etdiyim bir beyt şeirin müəllifi, Respublika Əlyazmaları Fondunun ilk direktorlarından biri, klassik Azərbaycan şairlərindən tərcümələr müəllifi mərhum Məmmədağa Sultanovun bu fikirləri də dəyərlidir:

Fondumuzda neçə min abidə təsvir olmuş,
Bu səbəbdən onun ünvanı Cahangir olmuş!

Bir neçə min abidənin təsviri, onun ünvanının müəyyənləşdirilməsi Arif Ramazanovun da payına düşmüşdür. Beytdə adı əksini tapmış Cahangir müəllim (ruhu şad olsun) Arifi Əlyazmalar İnstitutunun baş sütunlarından biri adlandırırdı.

Xəzinəyə daxil olan qədim əlyazmmaları ilk dəfə qeydə alan Arif Ramazanov bu məsul işlə kifayətlənməmiş, 70-dən artıq qədim əlyazma əsərini tərcümə, tərtib, transliterasiya və redaktə işlərini yerinə yetirmişdir. Bunlardan:

1. Nəsirəddin Tusi - Zici-Elxani
2. Dərbəndnamələr
3. Məhəmməd Yusif Şirvani - Tibbnamə
4. M.M. Xəzani - Tarixi-Qarabağ
5. Bahar Şirvani - Əhvalati-Qarabağ
6. A.A.Bakıxanov - Riyazül-Qüds
6 a. A.A.Bakıxanov - Nəsihətlər
7. Qarabağnamələr
8. Məzlumnamə
9. M.M.Nəvvab - 1905-1906-cı illərdə erməni-müsəlman davası
10. M.Y.Qarabaği - Məcmueyi-Vaqif və digər müasirin
11. Yusif bəy Ustaclu - Divan
12. Məczub Təbrizi - Divan
13. Kişvəri - Divan
13 a. Etimadüssəltənə ? Xeyrati-hesan
14. Nəvvab - Təzkireyi-Nəvvab
15. Əli bəy Hüseynzadənin "Füyuzat"da dərc olunmuş məqalələrini redaktə etmişdir və s., və i.a.

Əlyazmalar İnstitutunun nümayiş zalında yerləşdirilmiş qədim əlyazmaların və onların mulyajlarının məzmunu, onlar haqqında məlumatın müəyyənləşdirilməsi məhz Arif Ramazanovun gərgin zəhmətinin nəticəsidir.

Arif Ramazanovun mətbuat səhifələrində dərc olunan məqalələri geniş oxucu kütləsini vaxtaşırı olaraq bu zəngin, əvəzolunmaz əlyazmalar xəzinəsi ilə tanış etmək məqsədi daşımışdır. Bunlardan bir neçəsini nümunə göstərək:

1. Nəsirəddin Tusi ilk azərbaycanlı mineraloqdur. - "Bakı" qəzeti, 1973.
2. Əlyazmalar xəzinəsi zənginləşir. - "Əlyazmalar xəzinəsində", 1976, №4.
3. Nəsirəddin Tusinin bəzi əlyazmaları haqqında məlumat - "Elm və həyat" jurnalı, 1981, №11.
4. Gəncəli Ədil xanın "Səyahətnaməsi"ndən - "Dalğa" qəzeti, 1990.
5. Həmidə xanım Əhməd bəy (Cavanşir) qızının əhvalatı - "Dalğa" qəzeti, 1990.
6. 1906-cı il iyul ayında Şuşa şəhərində baş vermiş erməni-müsəlman davası - "Vətən səsi" qəzeti, 1991, №33-34.
7. Üzeyir bəy Hacıbəylinin vəfatı münasibətilə yazılmış izharı-təəssüf - "Musiqi dünyası" jurnalı, 2000, №3-4.
8. "Zici-Elxani" əlyazmasının Bakı nüsxəsi. - Bakı, 2002.
9. Mahmud ibn İlyasın təbabətə aid əsəri haqqında - "Elm və həyat" jurnalı, 1988, №1.
10. İbrahim xanın ölümü haqqında - "Dalğa" qəzeti, 1992.
11. Həqir Sərabi - "Elm" qəzeti.
12. Mehdi Hüseynin Əliağa Vahidə yazdığı bir məktub (T.Həsənzadə ilə) - "Ədəbiyyat və incəsənət" qəzeti, 3 mart, 1989, səh. 3.

Fars dilinə tərcümə işlərindən nümunələr:

1. Farsca əlyazmalar kataloqu, Cild 1. (Bakı nüsxələri). Tehran, 2001.
2. Kitabi-Dədəm-Qorqud - 1300 (qısa məlumat). Bakı, 2000.
3. Əbdürrəhim Badkubeyi - Səfərnameyi-Məkkə. Tehran, 1998.
4. Əbdülhüseyn Kaşani - Səfərnameyi-İsfahan. Qum, 1997.
5. Saltıkov-Şedrin adına Ümumi kitabxanada olan farsca əlyazmaların kataloqu. Tehran, 1996.
6. Rusiya EA Şərqşünaslıq İnstitutunda olan farsca əlyazmaların kataloqu. Tehran, 1996.
7. Ə.Biruni adına Özbəkistan Şərqşünaslıq İnstitutunun farsdilli əlyazmalar kataloqu. Tehran, 1996.

Arif Ramazanovun digər maraqlı işlərindən biri də şifahi tərcüməçilik fəaliyyətidir (sinxron tərcümə). Yaddan çıxmayan, daim xatırlanan Ulu Öndərin Bakıda olmuş İran İslam Respublikasının Prezidenti Ağayi Rəfsəncani ilə görüşü zamanı tərcüməçi kimi iştirak etməsidir. Arifin Tehran ləhcəli tərcüməsi İran Prezidentinin diqqətini cəlb etmiş, bununla maraqlanmış, Arif "Bakı Daneşqahında təhsil almışam" deyə söyləmişdir.

*(Davamı 3-cü səhifədə)*

# BU, ARİF RAMAZANOVDUR!

*(Əvvəli 2-ci səhifədə)*

**Arifin fars-tacik şairi Əbdürrəhman Cami konfransındakı fars və Azərbaycan dillərindən tərcümələri də yaddaqalandır.**

Arif Ramazanovun çoxcəhətli elmi fəaliyyətinin digər hissəsi elmi ezamiyyətlərlə əlaqədardır. O, xaricdə nəşr olunmuş bir çox əlyazmalar kataloqunun əldə edilərək gətirilməsinə nail olmuşdur. Bunun üçün dəfələrlə elmi ezamiyyətlərin iştirakçısı olmuşdur. Arif Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun 11.11.1990-cu ildə İran İslam Respublikası ilə bağladığı müqaviləyə əsasən 04.12.2006-cı ildən 02.01.2007-ci ilədək 1 ay müddətinə Tehran və Qum şəhərlərində yerləşən Əlyazmalar Mərkəzində işləmək və əlyazma kataloqlarını gətirmək üçün həmin şəhərlərə ezam olunmuşdur. Onun Qum şəhərinə 2-ci dəfə ezam olunması tarixi isə 04.11.2011-ci ildən 11.11.2011-ci ildir.

Ehtiyatda olan zabit, kapitan Arif Ramazanov 14.05.1982-ci ildən 20.07.1984-cü ilədək Əfqanıstan Respublikasında hərbi xidmətdə olmuş, 27.01.1986-cı ildən 30 gün müddətinə hərbi mükəlləfiyyəti yerinə yetirmişdir. Onun həm əməkdə, həm də hərbi xidmətdə qazandığı uğurlar yüksək qiymətləndirilmişdir. Belə ki, Arif

1) 1980-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə

2) 1983-cü ildə "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdur.

Əziz qardaşım Arif! Səni Respublikamızda Müstəqillik və Suverenlik ili kimi qeyd olunan 2025-ci ildə, yubiley yaşın münasibətilə təbrik edirəm! Sənə cansağlığı, gözəl ailənizə səadət və xoşbəxtlik arzulayıram!

Görkəmli şərqşünas-əlyazmaşünas alimlərin aşağıdakı fikirləri Arif Ramazanovu tanıyanların xatirində qalan, iri həcmli bir kitabı əhatə edə biləcək yazının kiçik bir hissəsidir ki, Arifsevərlər tərəfindən təqdim olunur: Dinləyək!

**Teymur Kərimli, akademik:** - Görkəmlj mətnşünas, klassik qaynaqların, qədim əlyazmalarının mahir bilicisi Arif Ramazanov, çağdaş dövrümüzdə az-az təsadüf edilən örnək mütəxəssislərdəndir. Gənclərimiz belə istedadlı insanlardan nümunə götürməlidirlər. Əlyazmaların öyrənilməsi sahəsində Arif müəllimin xidmətləri böyükdür.

**Rafael Hüseynov, akademik:** - Dünyaya gələn insanlara adlar verilərkən hələ bu, sadəcə, şərti işarədir. Zaman keçəndən, ömür yaşanandan sonra isə bu ad artıq həmin insanın keçdiyi yola uyğun məzmun kəsb edir - ya bu adı daşıyana uyğun gəlir, ya da onun təbiəti, əməlləri, oturuşu-duruşu ilə ziddiyyət təşkil edir.

Arifin adının ona çox yaraşdığını, həm bir insan, həm bir araşdırıcı kimi birbaşa mahiyyəti ilə bağlı olduğunu həyat özü sübuta yetirib.

Arif Ramazanov həm həssas, nəvazişkar, xoşrəftar, sözündə düz olan arif adamdır, həm də üz tutduğu çətin araşdırmaçılıq sahəsində - klassik irsimizi öyrənməkdə, mənbələrə bələdlikdə, bir-birindən fərqli xətlərlə qələmə alınmış əlyazmaları oxumaqda arif və mahirdir.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyində birgə çalışdığımız illər boyunca mən Arif Ramazanovu bütün mənalarda həmişə ARİF gördüm və çox məmnunam ki, ömrümdə belə dürüst dost və həmkar var.

**Kamandar Şərifov, professor:** - Azərbaycan xalqının mədəni irsini özündə ehtiva edən yazılı abidələr eramızın erkən çağlarından başlayaraq XIX yüzilliyədək, əsasən ərəb əlifbasında yazılmışdır. Ərəb əlifbasının müxtəlif xətt növlərilə yazılmış abidələri doğru-düzgün oxumaq o qədər də asan deyildir. Bəzən bu və ya digər əlyazmanı düzgün oxumaq olduqca çətin olur. Odur ki, orta əsr yazılı abidələrini oxumaq üçün xüsusi hazırlıq tələb olunur. Bir çox hallarda bu və ya digər xətt növündə yazılmış əlyazmanın oxunmasında ortaya çıxan çətinliklər ziddiyyətli fikirlər yaranmasına səbəb olur. Bu hallar özünü türkdilli mətnlərdə daha çox göstərir. Odur ki, orta əsr yazılı abidələrini oxumaq üçün hər şeydən öncə ərəb qrafikası ilə yazılmış çoxsaylı xətt nümunələrini öyrənmək lazımdır. Bu baxımdan Arif Ramazanov orta əsr xətt nümunələrinin əsil bilicisidir. Əlyazmalar İnstitutunda yazılı abidələr üzərində araşdırmalar aparan tədqiqatçılar ortaya çıxan çətinliklərin aradan qaldırılmasında və yaxud mətnlərin oxunmasında ortaya çıxan ziddiyyətli fikirlərin dəqiqləşdirilməsində tez-tez Arif müəllimə müraciət edirdilər.

Uzun müddət əlyazma şəklində qalmış və nəşrinə qadağa qoyulmuş, erməni kilsəsinin rəhbərliyi ilə daşnakların xalqımıza qarşı Qarabağda, Bakıda, Qərbi Azərbaycanda, Naxçıvanda törətdikləri qırğınları ifşa edən Mir Möhsün Nəvvabın "1905-1906-cı illər erməni-müsəlman davası" adlı əsərini yeganə əlyazma nüsxəsi əsasında Arif müəllimlə ilk dəfə birlikdə nəşrə hazırlayanda belə çətinliklərimiz çox oldu. Respublikamızın ərazisindən toplanaraq Əlyazmalar İnstitutuna gətirilən əlyazmaları inventar kitabına yazan da Arif müəllim olmuşdur. Ümumiyyətlə əlyazmaların şifrlərə bölünərək nizama salınmasında da əməyi az olmamışdır. O, əlyazma abidələrinin bilicisi kimi tanınmışdır.



*Arif Ramazanov Aydın Xəlilov, Şeyxülislam Allahşükür Paşazadə, Mərəşi Nəcəfi kitabxanasının müdiri Seyid Mahmud Mərəşi, Hacı Fayiz və İran Səfirliyinin əməkdaşları ilə birlikdə*

**Tofiq Cahangirov:** - (1961-1966-cı illərdə ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsində təhsil almışdır. 1996-2006-cı illərdə Kafedra müdiri vəzifəsində çalışmışdır. 1980-1981-ci illərdə Əfqanıstan Müharibəsinin iştirakçısı, veteranıdır. Bu orden və medallarla təltif olunmuşdur:

1. Döyüş xidmətlərinə görə Əfqanıstandan medal - 1982-ci il
2. SSRİ Silahli Qüvvələrinin 70 illiyi münasibətilə Yubiley medalı
3. Beynəlmiləl döyüşçüyə Əfqan xalqı tərəfindən Təşəkkür medalı
4. Beynəlmiləl döyüşmü medalı - 1982-ci il)

**Tofiqin dediklərindən:** - Ariflə Tehranda tanış olmuşam, Bakıda qonşu olmuşam. 1961-ci ildən ADU-nun (BDU) Şərq fakültəsinə daxil olmuşuq. Professor Rəhim Sultanov bizə "Qədim və Orta əsrlər fars dili fənnini tədris edirdi. Arif məşğələlərdə fəal tələbə, yaddaşı möhkəm idi. Dostluqda səmimi, mərd və sədaqətlidir. İndiyədək dostluğumuz davam edir.

**Tahirə Əliyeva, böyük elmi işçi:** - Arif Ramazanovu 1986-cı ilin dekabr ayında Əlyazmalar İnstitutunda işə daxil olduğu gündən tanıyıram. Şərqşünaslıq fakültəsində oxuduğum illərdə Osmanlı türkcəsi, Ərəb dili fənnlərini öyrəndiyimizə baxmayaraq əlyazma oxumağın nə qədər çətin olduğunu, orta əsrlərdə müxtəlif katiblər tərəfindən fərqli xəttlərlə yazılmış əlyazmaların üzə çıxarılıb araşdırılmasını, tədqiq edilməsinin xüsusi elm olduğunu dərk etdim və üz tutdum Arif müəllimin yanına. Ona müraciət etməyi mənə o zamankı şöbə müdirim Zəminə Hacıyeva və Paşa Kərimov tövsiyə etmişdilər. fərdi plana əsasən İnstitutun əməkdaşlarına müəyyən sayda əlyazma təsvir etmək həvalə edilirdi. Hansı əlyazma neçənci əsrdə yazılıb, müəllifi kimdir, xətti nədir, kağızı neçənci əsrə və hansı ölkəyə məxsusdur - bu suallarla Arif müəllimin yanına qaçırdıq. O qədər səriştəli, təcrübəli idi ki, əlyazmanı əlinə götürən kimi dərhal neçənci əsrə aid olması, kağızı, filiqranı, xətti, müəllifi, katibi və s. paleoqrafik xüsusiyyətləri barədə dəyərli məlumatlar verirdi. Bu sözləri təkcə mən yox, institumuzun bütün əməkdaşları təsdiq edə bilər. Nəşr etdirdiyim bütün kitablarının işıq üzü görməsində Arif müəllimin böyük əməyi olmuşdur. Böyük alim və gözəl insan olan Arif müəllimə Allahdan sağlamlıq, xoşbəxtlik və təqaüddə olan illərini səmərəli keçirməsini arzu edirəm.



*Arif Ramazanov, Hacı Mail Əliyev, İstanbul Universitetinin professorları və Əkrəm Bağırov*

Arif müəllimlə birgə işlərimiz:

1. Mahmud bin Osman Lamei Çələbi və onun "Münşəat-i məkatib" əsəri

2. Əhdi Bağdadi. Gülşən-i şüəra. Redaktorlar: Əkrəm Bağırov, Arif Ramazanov

3. Bursalı Məhəmməd Tahir bin Rüfət "Türklərin ülum və fünuna xidmətləri".

*(Davamı 4-cü səhifədə)*

# BU, ARİF RAMAZANOVDUR!



*Arif Ramazanov Aydın Xəlilov, Hacı Mail Əliyev, Şeyxülislam Allahşükür Paşazadə ilə birlikdə*

*(Əvvəli 3-cü səhifədə)*

**Əli Məmmədbağıroğlu, fil.ü.f.d.** - Əlyazmalar İnstitutu 1950-ci ildə Respublika Əlyazmaları Fondu adı ilə yaranandan bu günədək qazandığı elmi nailiyyətləri və zəngin mənəvi irsi ilə nəinki Respublikamızda, hətta onun hüdudlarından xeyli uzaqlarda da tanınır. Əlbəttə, bu uğurun, şöhrətin əldə olunmasında uzun illər bu elmi-tədqiqat institutunda çalışmış əlyazmaşünas alimlərin rolu çox böyükdür. Ömrünü qədim əlyazmalar arasında keçirmiş, çoxillik tədqiqatçılıq fəaliyyətini Azərbaycanın müxtəlif bölgələrindən qiymətli mənəvi irsin bir-bir toplanmasına, onların Əlyazmalar İnstitutuna gətirib sistemləşdirilməsinə və elmi-paleoqrafik şəkildə öyrənilməsinə həsr edənlərdən biri də görkəmli şərqşünas alim, fars dili üzrə tanınmış tərcüməçi Arif Ramazanovdur. Yazılı abidələr üzərində araşdırma aparan və bu sahəyə yaxından bələd olanlara çox yaxşı məlumdur ki, əlyazmaları tədqiq etmək heç də asan bir fəaliyyət sahəsi deyildir. Çünki əlyazmaları araşdırmaq üçün tədqiqatçıdan şərq dillərini dərindən bilməklə bərabər, həm də gərgin əmək, səbir, təmkin, elmi-tədqiqatçılıq səriştəsi, eyni zamanda bu sahədə illərlə dözümlülük və xüsusilə diqqətli olmaq tələb olunur. Bu sadalanan keyfiyyətlərin demək olar ki, hamısı Arif müəllimdə vardır. Əgər belə olmasaydı o, əlli ildən artıq müddət ərzində yalnız bir elmi idarədə qərar tutub qala bilməzdi.

Arif müəllimin demək olar ki, peşəkar əlyazmaşünas kimi bu sahənin Azərbaycanda ən nadir bilicilərindən biri olduğunu desək yanılmarıq. Çünki onun yazılı abidələrlə bağlı bilik və təcrübəsindən faydalanan yalnız çalışdığı institutun kollektivi olmamış, hətta Respublikamızın bütün bölgələrindən aşkar olunan ərəb qrafikalı, çətin oxunan qədim əlyazmaların paleoqrafik parametrlərini dəqiqləşdirmək üçün çox adam ona müraciət etmişdir. Şərqin böyük alimi İbn Sina haqqında belə rəvayət edirlər ki, bir gün o, şəhərə gəzməyə çıxır. Bazarda kitabfüruşa yaxınlaşıb əlini uzaqdan-uzağa bir kitaba tuşlayaraq deyir ki, bu "Qanun"dur? ("Qanun" alimin yazdığı dünyaca məşhur olan "Əl-Qanun fit-Tibb" əsərinin qısa adıdır). Kitab satıcısı təəccüblə onun üzünə baxıb, sonra deyir ki, sizin də adınız çox günan ki Rəisdir (Rəis isə İbn Sinanın adlarından biri olub). O, sözünə davam edərək deyir ki, hər hansı bir kitabı uzaqdan-uzağa belə asanlıqla ancaq sizin kimi məşhur alim tanıya bilər. Qeyd edim ki, orta əsr müsəlman-şərq aləmində əlyazma kitabını tərtibetmə ənənəsinə görə çağdaş nəşrlərdən fərqli olaraq, cild üzərində o zamanlar kitabın adı, müəllifi heç vaxt yazılmazdı. Ona görə də üzərində adı yazılmayan kitabı uzaqdan-uzağa müəyyən etmək heç də asan deyildi. Əlyazmaşünaslıqda zəngin təcrübəyə malik olması ilə tanınan Arif müəllim də ilk dəfə gördüyü əlyazma kitabına ötəri baxmaqla onun müəllifi, əsərin adı, əlyazmanın xəttinə görə Şərqin hansı regionunda köçürüldüyünü, bütün bunlardan başqa əlyazma kitabının elmi və eyni zamanda kitabşünaslıq cəhətdən nə qədər dəyərli olub-olmadığını ilk anda söyləyə bilən peşəkar bir mütəxəssisdir.

Arif müəllim Əlyazmalar İnstitutunda uzun illər işlədiyi müddətdə bütün əməkdaşlara əlindən gələn köməkliyi heç vaxt əsirgəməmişdir. Kimin əlyazma mətninin oxunmasında nə çətinliyi olmuşdursa, ilk növbədə ona üz tutmuşdur. Ona görə də o, müəllifi olduğu kitablarından savayı, mahir əlyazmaşünas tədqiqatçı kimi, institut əməkdaşlarının əlyazmalar əsasında tərtib edərək nəşrə hazırladıqları çoxlu sayda kitabların ya rəyçisi, ya da elmi redaktoru olmuşdur. Onunla mənim də bir sıra müştərək fəaliyyətim vardır. Məsələn, M.M.Nəvvab. "Əsərləri" (Bakı, "Şərq-Qərb", 2006), "Əmsal və nəsayehi-türki" (Bakı: "Elm və təhsil", 2012), Adolf Berje. "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə..." (Bakı: "Elm və təhsil", 2014), "Hatəm Tayi" yazılı dastan abidəsi (Bakı: "Zərdabi Nəşr" MMC, 2022) kimi nəşrlərdə ya birgə tərtibçi, ya da redaktor və rəyçi olmuşdur.

Azərbaycan əlyazmaşünaslıq elminin son 50-60 il ərzində formalaşmasında böyük xidmətləri olan, görkəmli şərqşünas, tədqiqatçı alim Arif Ramazanov bu gün həyatının müdriklik dövrünü yaşayır. O, şərəflə, ləyaqətlə və mənalı yaşadığı ömrünün səkkizinci onilliyini bu yaxınlarda qeyd edəcək. Odur ki, çox hörmətli Arif müəllimi şanlı yubileyi münasibətilə ürəkdən təbrik edir və ona möhkəm can sağlığı, yeni-yeni nailiyyətlər arzulayıram.



*Arif Ramazanov Hacı Mail Əliyev və İstanbul Universitetinin professorları ilə*

**Rauf Şeyxzamanlı, böyük elmi işçi**: - Mən Əlyazmalar İnstitutunda keçirdiyim ilk vaxtlarımı xatırlayıram. İnstitutun o vaxtkı rəhbəri Məmməd Adilov mənə məşhur alimimiz akademik Əhməd Rəcəblinin sürgündə yazdığı "Babək" romanını əski əlifbadan müasir əlifbaya çevirməyi tapşırmışdı. Əsərin gah köhnə dəftərxana kitabından, gah məktəb dəftərindən qopardılmış vərəqlərin, gah da yazı üçün heç yaramayan, qalın, yağ ləkələrlə dolu ayrı-ayrı kağız parçalarının üstündə müxtəlif rəngli mürəkkəb və ya karandaşla yazıldığından müəllifin onu bir insanın yaşaması üçün dözülməz şəraitdə yaratdığından xəbər verirdi. Üstəlik bu qaralamanın yazı xətti oxumaq üçün çox çətin idi. Təəccüblü deyil ki, bundan əvvəl bir neçə adam həmin işi yerinə yetirməkdən imtina etmişdi. Mən əlyazmalarla yenicə tanış olmağa başladığıma görə iş əsnasında böyük çətinliklərlə üzləşirdim. Bu səbəbdən bəzən institutun təcrübəli işçilərinə müraciət etməli olurdum. Onlar da imkan daxilində mənə köməklərini əsirgəmirdilər, lakin özləri də aciz qalanda həmişə bir əməkdaşın adını çəkib ona müraciət etməyimi məsləhət görərdilər. Həmin adam Arif Ramazanov idi. Mən İnstitutun ikinci mərtəbəsində Arif müəllimin tək oturduğu otağa gedib mətndəki ən çətin yerlərini ona göstərərdim. Arif müəllim isə o yerlərə diqqətlə baxıb bir neçə saniyədən sonra nə mənim nə də müxtəlif elmi adlara və dərəcələrə sahib olanların çözə bilmədiyi məsələni həll etməklə məni hər dəfə heyrətə salardı. Güman edirəm ki, eyni sözləri bizim o vaxtkı əməkdaşlarımızın hamısı deyə bilərdi, çünki digərləri də öz elmi işlərilə əlaqədar tez-tez Arif müəllimə müxtəlif suallarla müraciət edərdilər. Ustad adətən dərhal cavab verər, çox nadir hallarda isə iş masasının üstündəki qalaq-qalaq yığılmış kitablardan birini açıb bir-iki dəqiqəyə məsələni həll edərdi.

Bir gün mənim tərcümə etdiyim Nadir şah Əfşarın məktubları çapdan çıxdı. Həmin məktubların dili həddindən artıq mürəkkəb olduğuna görə onların üzərində uzun müddət çalışmalı oldum. Kitab haqqında qəzetlərdə, televiziyada, internetdə məlumat verdilər, onu çox təriflədilər O vaxt bizim şöbə müdirimiz Möhsün müəllim Nağısoylu Elmi Şuranın iclasından gəlib mənə Arif müəllimin həmin tərcüməni çox bəyəndiyini demişdi. Sidqi-ürəklə deyə bilərəm ki, mənim üçün bundan öncə tərcüməm haqqında yazılmış xoş sözlərdən çox məhz bu əsl mütəxəssis rəyi çəkdiyim zəhmətimə verilmiş ən yüksək qiymət oldu.

*2025*



**Tahirə HƏSƏNZADƏ,**
**tarix elmləri doktoru**